**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

**TARİX VƏ COĞRAFİYA FAKÜLTƏSİ**

**TƏSDİQ EDİRƏM**
**Fəlsəfə və sosial elmlər kafedrasının müdiri**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**prof. R. Əhmədov ____________**
**"_12"fevral 2025-ci il**

# FƏNN SİLLABUSU
## (İşçi tədris proqramı)

**Kafedra:** Fəlsəfə və sosial elmlər

**Fakültə:** Məktəbəqədər

**İxtisas**: Məktəbəqədər təhsil

**İxtisasın kodu və adı:** 050119

**Qrup:** **MQT 2301-02-05B**

**I. <u>Fənn haqqında məlumat</u>:**

**Fənnin kodu və adı:** **01 04 001***Fəlsəfə*

**Kredit sayı:** 3

**Təhsil səviyyəsi***:* *Bakalavr*

**Tədris yükü (saat) cəmi:** 30 saat: 30 saat mühazirə

**Tədris ili:** *2024/2025;* Semestr: IV Bölmə: Azərbaycan

**II. Müəllim haqqında məlumat**Əhmədli Rafail Ayvaz oğlu

**Məsləhət günləri və saatları:** Ivə IV günlər, saat 14:00-16:00

**E-mail ünvanı:** **ehmedli. rafail@mail.ru**

**Mobil:** **0503317869**

**İş telefonu:** 465 8371

**III.<u>Tələb olunan dərsliklər və dərs vəsaitləri:</u>**

**<u>Zəruri ədəbiyyatlar:</u>**


1. Elşən Bayramzadə. Fəlsəfə.Dərs vəsaiti. Bakı-2018.
2. *Fərhadoğlu M. Fəlsəfənin əsasları: Dərslik. Bakı, 1996, 1998, 2006*
3. *Hacıyev Z.C. Fəlsəfə: Ali məktəblər üçün dərslik. Bakı, 2012*
4. *İmanov H. Fəlsəfənin əsasları: Dərs vəsaiti. Bakı, 2005, 2007*
5. *Mehdiyev R. Fəlsəfə:Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2010*
6. *Şükürov A, Fəlsəfə: Ali məktəblər üçün dərslik. Bakı, 1996, 2008*
7. Rüstəmov Y. Fəlsəfənin əsasları (mühazirə kursu). Bakı, 2004,2007
8. Məmmədova Taliyə. Fəlsəfə. Dərs vəsaiti. Bakı, 2018

**<u>Rus dilində</u>**

1. *Алексеев П.В., Панин А.В. Философия. М., 2008*
2. *Мехтиев Р.Э. Философия: Учебное пособие для вузов. Баку, 2009*
3. *Рустамов Ю.И. Основы философии. Баку, 2004*
4. *Спиркин А.Г. Философия. М., 2000, 2005, 2006*
5. *Фролов И. Т. и др. Введение в философию. М., 2003*
6. *Степин В.С., Яскевич Я.С., Данилов А. Н. и др. Философия. Минск, 2008*

***Əlavə:***

1. *Azərbaycan fəlsəfə tarixi: 4 cilddə, I və II c., Bakı, 2014*
2. *Fəlsəfə ensiklopedik lüğəti. Bakı, 1975.*
3. *Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 1994, 1997, 2006*
4. *Paşayev V. Fəlsəfə: Dərs vəsaiti. Bakı, 1999*
5. Əziz Məmmədov."Sistemli yanaşma və sinergetik paradiqma" (monoqrafiya),«Системный подход синергетическая парадигма», "System approach a synergetic paradigm". Bakı - 2012 (17,5 ç.v.).
6. *Zeynalov M. Fəlsəfə tarixi (Qərb fəlsəfəsi):Ali məktəblər üçün dərslik. Bakı, 2000*


**IV.<u>Fənnin təsviri və məqsədi</u>:**

**<u>Fənnin təsviri</u>:**

*Fəlsəfə iki min beş yüz ildən çox tarixi olan ən qədim bilik sahəsidir. Öz inkişafının klassik dövründən-XIX əsrin ortalarınadək insanın əldə etdiyi bütün bilik sahələrini əhatə etməklə "elmlər elmi" rolunu oynamış, insan və onu əhatə edən aləm barədə əsas bilik mənbəyi olmuşdur. Müasir elmlər sisteminin yaranması fəlsəfi biliyin əhəmiyyətini azaltmır, bu fənn*

*təbiət, cəmiyyət və idrakın ən ümumi qanunauyğunluqları haqqında elm kimi əhəmiyyətini qoruyub saxlayır. Fənn öz predmetinə uyğun olaraq, varlıq təlimi, idrak nəzəriyyəsi və sosial fəlsəfə bölmələrindən ibarətdir. Fəlsəfənin müasir problemləri ilə yanaşı onun tarixi inkişafı məsələləri də bura daxildir.*

**<u>Fənnin hədəf və məqsədi</u>:**

*Fəlsəfə fənninin tədrisində əsas məqsəd bakalavr pilləsində təhsil alan tələbələrin müasir dövr üçün müstəsna əhəmiyyət kəsb edən müvafiq məntiqi-tənqidi təfəkkürə yiyələnmələrinə kömək göstərməkdir. Hələ antik dövrdə "fəlsəfə ağlın mədəniyyətidir" aforizminin yaranması onun bilik mənbəyi olması ilə yanaşı ideoloji-dünyagörüşü əhəmiyyətinin də lazımınca dərk olunub qiymətləndirildiyini göstərir. Fəlsəfənin belə bir mənbə əhəmiyyəti müasir informasiya əsrində əsla azalmamışdır. Fənnin tədrisinin daha konkret vəzifəsi azərbaycançılıq ideologiyasının dərkinə və formalaşmasına kömək göstərməkdir.*

**<u>Fənnin qısa məzmunu</u>: Fəlsəfə**fənni ADPU-nun , təhsil alan bakalavr pilləsi tələbələri üçün 1 semestr ərzində 30 saat olaraq (15 saat mühazirə) keçirilməsi planlanmışdır.

*Təqdim olunan kursa fəlsəfənintarixi inkişafı,* problemləri, onun cəmiyyətdə rolu ilə üzvi bağlılığı və əsas *sosial funksiyaları daxildir.*

Fənnin məzmunu – fəlsəfə tarixi, ontologiya, qnoseologiya, fəlsəfi antropologiya, həmçinin mədəniyyətin fəlsəfəsi, azərbaycançılıq ideologiyası və muasir dövrün qlobal problemlərini əhatə edir.

Fənnin tədrisi zamanı əyani vasitələrdən –slaydlardan, kursla bağlı mövcud ədəbiyyatlardan, internet saytlarından və istifadəsi mümkün olan digər tədris vəsaitlərindən istifadə olunması nəzərdə tutulmuşdur. Bundan əlavə ,tələbələr **fəlsəfə** fənni ilə əlaqədar mövzular üzrə sərbəst iş yerinə yetirməlidirlər

«Fəlsəfə "**fənninin tədrisi prosesində tələbələr müstəqil olaraq aşağıdakı ümumi kompetensiyalarına (-ÜK)** malik olmalıdırlar:

**ÜK-1**-İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;

**ÜK-2-**Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;

**ÜK -3**-İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;

**<u>Fənnin təlim nəticələri:</u>**

**FTN-1-** Cəmiyyətin problemlərini, dünyagörüşünü, tarixi mövqeyini, mənəvi-idrakı dəyərlərini təsvir edir.

**FTN-2** Qədim və Antik cəmiyyətdə fəlsəfi düşüncənin formalaşmasını və səciyyəvi xüsusiyyətlərini izah edir ,sənaye sahələrini müxtəlif xüsusiyyətlərinə görə fərqləndirir.

**FTN-3**Bütün dövrlər üzrə ictimai-iqtisadi münasibətlərdə təhkimçiliyin, siyasi-hüququ və mənəvi həyatda dini ideologiyanın hökmranlığını və fəlsəfəyə, elmə, incəsənətə, əxlaqa təsirini şərh edir.

**FTN-4**Yeni dövr və klassik alman fəlsəfəsində yeni dövr anlayışının meydana gəlməsi səbəblərini təhlil edir.

**FTN-5**Fəlsəfənin maddi-iqtisadi, sosial-siyasi və mənəvi-mədəni həyatda əsaslı dəyişikliklərinin xüsusiyyətlərini tarixi cərəyanların mahiyyətini əsaslandırır.

Hər bir dərsdən əvvəl tələbə müəyyən edilmiş və tapşırılmış mətnlərlə tanış olmalı və təlim prosesində məzmuna uyğun olaraq tələbə müzakirəyə qatılmalıdır.

**Fənnin tədrisində istifadə olunan tədris metodları:**

*Bu tələblər aşağıdakı kimi müəyyən olunur:*

- ***Təqdimatınhazırlanması***
- ***Yazıışı***
- ***Tapşırıqlar***
- ***Layihələr***
- ***Qrupişləri***
- ***Kollokviumlar***
- ***İmtahan***

***Qaydalar (Tədris siyasəti və davranışı):***

- **Davamiyyət.** Tələbəninfənn üzrə apa*rılmış auditoriya saatlarının iştirak etmək həddi vardır. Bu səbəbdən də müəllimlər tədris etdikləri fənlər üzrə tələbələrin dərslərə davamiyyətinin düzgün qeydiyyatına cavabdehdilər.**Bütün dərslərdə iştirak edən tələbə 10 bal qazanır. Auditoriya saatlarının 25% dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır!***

- ***Akademik plagiat.*** *Plagiat (məsələn, yetərincə istinad verilmədən internetdən köçürmə), kollokviumlarda və ya imtahanda köçürmə cəhdləri (köçürmə baş tutmasa belə!) və ya digər tələbə ilə müzakirə (kömək etmək və ya kömək almaq cəhdləri) tələbənin həmin*

*fəndən çıxarılmasına (akademik kredit borcuna) səbəb olur. Belə halları görən müəllim fakültə rəhbərliyini dərhal xəbərdar etməlidir.*

- ***Auditoriyada etik davranış qaydaları:***
- ***Dərsdə mövzudan kənar söhbətlər:*** *dərsdə kənar söhbətlər tələbələrin fəal dinləmə və qavramasını çətinləşdirir.* ***Başqalarına qarşı diqqətli olun, onların hüquqlarına hörmətlə yanaşın****.*
- ***Diqqətsizlik:****Məşğələ vaxtı dərsdən kənar vəsaitlərdən istifadə etmək qadağandır. Akademik dərs saatlarında tələbələrin müzakirələrə qoşulması gözlənildiyinə görə diqqətli olmaq tələb edilir. Bu, tələbəyə tədris olunan materialı mənimsəməyə kömək edir. Dərs vaxtı elektron qurğulardan ancaq tədris məqsədləri üçün istifadə etmək olar. Mobil telefonlar dərs vaxtı söndürülməlidir.*
- ***Tapşırıqlar siyasəti:***
- ***Tapşırıqların vaxtında verilməsi:****gecikdirilmiş tapşırıq qəbul edilməyəcək.*
- ***Təqdimatlar:*** *mövzu üzrə təqdimatlar, layihələr, hesabatlar və digər tapşırıqlar akademik saat ərzində təqdim olunur.Tapşırıqların qiymətləndirilməsi də dərs zamanı aparılır.*

***Fənnin qısa məzmunu****:Fənnin qısa məzmunu mühazirə, seminar (məşğələ) dərslərinin təqvim-tematik planı, tələbənin sərbəst işi üzrə təqvim-mövzu planını əhatə edir.*

**V: Fənnin təqvim-tematik planı:**

| **Həftə** | **Mövzunun adı və əhatə etdiyi məsələlər** | **Saat** | **Mühazirə 2301B 2302B** | **Mühazirə 2305 B** |
|---|---|---|---|---|
| *1* | **1. Fəlsəfənin predmeti, funksiyaları və strukturu**<br>**İcmal:** “Fəlsəfə” termininin etimologiyası və tarixi,fəlsəfənin meydana gəlməsinin quldarlıq cəmiyyətində iqtisadi-sosial amillər və ictimai əmək bölgüsü ilə bağlılığı, mənəvi mənbələri. Qədim Şərqdə təşəkkül tapmağa başlaması, Antik cəmiyyətdə sistemli biliyə çevrilməsi. Öz tarixinin klassik dövründə “elmlər elmi” kimi çıxış etməsi, qeyri-klassik dövründə predmetinin konkretləşməsi, təbiət, cəmiyyət və təfəkkürün ən ümumi qanunları haqqında elm kimi müəyyənləşməsi. Fəlsəfənin başlıca problemləri və əsas sosial funksiyaları, dünyagörüşü funksiyasının müstəsna əhəmiyyəti. Fəlsəfənin əsas məsələsi və onun iki tərəfi, həllinə | *2* | ***18.02. 25*** | |

| | | | | |
|---|---|---|---|---|
| | görə filosofların materialistlərə və idealistlərə, optimistlərə və pessimistlərə (aqnostiklərə) bölünməsi. Fəlsəfənin müasir elmlər sistemində yeri və bir elm kimi strukturu, müasir dövrdə tədrisinin əhəmiyyəti.<br>Ədəbiyyat:<br>1.Rüstəmov Y. Fəlsəfə. Dərslik. Bakı-2003.<br>2. Fərhadoğlu M. Fəlsəfənin əsasları. Bakı-1996, 1998, 2006.<br>3. İmanov H. Fəlsəfə. Dərs vəsaiti. Bakı-2005-2007. | | | |
| *2* | **2. . Qədim Şərq və Antik dövr fəlsəfəsi.**<br>**İcmal:** Qədim Şərq anlayışı, quldarlıq cəmiyyətinin bu regionda erkən formalaşması, ictimai-fəlsəfi fikrin meydana gəlməsi üçün imkan yaranması. Babilistan və Misirdə fəlsəfi düşüncənin formalaşması və səciyyəvi xüsusiyyətləri, İkiçayarasında mixi, Misirdə heroqlif yazı sisteminin yaranması, toplanan məlumatların qorunub saxlanması və yayılmasında rolu. E.ə. VIII-VII əsrlərdə Babilistan və Misirdə fəlsəfi düşüncə xeyli inkişaf etsə də, onun hələ xalis fəlsəfə deyil, müdrikliyin adi şüura qarşı qoyulması olması.<br>Qədim dövrdə Azərbaycan fəlsəfəsi: zərdüştlük, manilik, məzdəkilik.<br>Qədim Hindistanda fəlsəfi fikrin formalaşması, vedalar, buddizm, caynizm, lokayata-çarvaka, hinduizm və b. təlimlər. Qədim Çində konfusilik, daosizm, moizm və b. fəlsəfi təlimlər.<br>Antik fəlsəfə, inkişafının əsas mərhələləri. Sokrataqədərki mərhələnin başlıca fəlsəfi məktəbləri: Milet materialist məktəbi və Heraklit, Pifaqorçular ittifaqı, Eleya idealist fəlsəfi məktəbi, materialist atomizm təlimi, bu məktəblərin nümayəndələri. Klassik mərhələninəsas məktəbləri və görkəmli nümayəndələri: sofistlər, Sokrat, Platon, Aristotel və b., fəlsəfənin sistemli biliyə çevrilməsi sahəsində xidmətləri. Makedoniyalı İsgəndərinişğalları ilə başlayan ellinizm mərhələsi, antik mədəniyyətdə Şərqin təsiri ilə mistisizmin güclənməsi, skeptisizm və stoisizm. Epikürün yunan atomizmini inkişaf etdirməsi, etik təliminin dinə qarşı olması. Antik fəlsəfənin sonuncu - Roma mərhələsi:epikürçülük, | *2* | ***04.03. 25*** | |

| | | | | |
|---|---|---|---|---|
| | skeptisizm, stoisizm və neoplatonçuluq, onların mahiyyəti və əsas nümayəndələri. Antik fəlsəfənin bütün klassik dövrdə örnək rolunu oynaması. "Orta əsrlər" və "feodalizm sivilizasiyası" anlayışları, müsəlman Şərqinin orta əsrlər fəlsəfəsi, formalaşması və məzmununa islamın və onun müqəddəs kitabı Quranın təsiri. Ərəb dilinin xilafət ərazisində ümumünsiyyət vasitəsi, fəlsəfə, elm və poeziya dili rolunu oynaması. Müsəlman Şərqində əsas fəlsəfi cərəyanlar: kəlam, Şərq peripatetizmi və təsəvvüf-sufilik fəlsəfəsi, onların mahiyyəti, görkəmli nümayəndələri, ilk sosial təlimlərin yaranması (İbn Xəldun).<br>Avropanın orta əsrlər fəlsəfəsi, ona xristianlığın, onun müqəddəs kitabı Bibliyanın, xüsusən İncilintəsiri, antik mədəniyyətin unudulması. Sxolastikanındini-fəlsəfi təlim kimi yaranması, əsas inkişaf mərhələləri, averroizmə qarşı mübarizəsi.Nominalizm və realizm cərəyanları, onların mahiyyəti və əsas nümayəndələri.<br>**Ədəbiyyat siyahısı**:<br>1. Rüstəmov Y. Fəlsəfə. Dərslik. Bakı-2003.<br>2. Fərhadoğlu M. Fəlsəfənin əsasları. Bakı-1996, 1998, 2006.<br>3. İmanov H. Fəlsəfə. Dərs vəsaiti. Bakı-2005-2007.<br>4. Şükürov A. Fəlsəfə. Dərslik. Dərs vəsaiti. Bakı-1997-2003.<br>5. Zeynalov M. Fəlsəfə tarixi. Bakı-2000 | | | |
| ***3*** | ***3-cü mövzu*: Orta əsrlər və İntibah dövrü fəlsəfəsi.**<br>**İcmal:** Orta əsrlər Qərb fəlsəfəsinin səciyyələri. Orta əsrlər Qərb fəlsəfəsinin inkişafında iki mərhələ: patristika və sxolastika.<br>Patristikanın mövzusu: Allahın mahiyyəti, İusus Xristosun Allah-insan təbiəti, cəmiyyət həyatında kilsənin rolu, elmi biliklə imanın qarşılıqlı münasibəti. Tertullianın iman və zəka haqqında düşüncələri. Origen və xristian ilahiyyatının elmi sistemini hazırlanması. Avqustin ilk sistematik xristian ilahiyyatının yaradıcısı kimi.<br>Sxolastika: VI-XIII əsrlər ərzində Roma-katolik kilsəsində xristian təliminin rasionallaşdırılması. Sxolastikanın əsas məqsədi –xristian təlimini nizama salmaq və dərk olunmasının asanlaşdırılması, onun əsas mərhələləri. Foma Akvinalı və | ***2*** | ***18.03.25*** | |

| | | | | |
|---|---|---|---|---|
| | "sxolastikanın qızıl əsri".<br>İntibah fəlsəfəsi. XIV-XV əsrlərdə Avropa ölkələrində baş verən sosial-iqtisadi dəyişikliklər, böyük coğrafi kəşflər, elmi-texniki inkişaf və onların yeni dünyagörüşünün formalaşmasına təsiri. Antik mədəniyyətin, antik həyat tərzinin, təfəkkür və qavrama üsulunun dirçəldilməsi.<br>İntibah dövründə ictimai-fəlsəfi fikrin üç əsas istiqaməti. Humanizm: F.Petrarka. Naturfəlsəfə: C.Bruno. İntibah dövrünün ideal cəmiyyət konsepsiyaları: N.Makiavelli, T.Mor, T.Kampanella.<br>**Ədəbiyyat siyahısı**<br>*1. Fəlsəfə: Red. prof. F.F. Ramazanov. Bakı, 1997, s. 112-131*<br>*2. Fərhadoğlu M. Fəlsəfənin əsasları, Bakı, 2006, s. 67-71, 88–96*<br>*3. Hacıyev Z.C. Fəlsəfə. Bakı, 2012, s.69–86*<br>*4. İmanov H. Fəlsəfənin əsasları. Bakı, 2007, s. 82–93*<br>*5. Mehdiyev R. Fəlsəfə. Bakı, 2010, s. 148–158*<br>*6. Şükürov A, Fəlsəfə. Bakı, 2008, s. . 2O5-218, 221–232* | | | |
| *4* | **4. Yeni və müasir dövr Qərbfəlsəfəsi.**<br><br>Yeni dövr anlayışı, Avropada bərqərar olan kapitalist ictimai münasibətlərin elmi-fəlsəfi fikrin inkişafına təsiri, klassik təbiətşünaslığın formalaşması, onun fəlsəfi təfəkkürə təsiri, sensualizm və rasionalizm fəlsəfi cərəyanlarının meydana gəlməsi. Sensualizmin materialist və subyektiv idealist istiqamətləri, rasionalizmin idealist mahiyyəti. Yeni dövrün əvvəlinin ictimai-fəlsəfi fikrində *maarifçilik* hərəkatının yeri, mədəniyyətin dünya ictimai-fəlsəfi fikrinin inkişafına təsiri. F.Bekon və R.Dekartın fəlsəfi görüşləri.Fransa Maarifçilik fəlsəfəsi: Volter, Monteskyö.<br>Klassik alman fəlsəfəsi, meydana gəlməsinin ictimai-siyasi şəraiti və ideya-nəzəri mənbələri, əsas nümayəndələri:İ. Kantın dualist və aqnostik fəlsəfəsi. Hegelin obyektiv idealist fəlsəfi sistemi və dialektik idrak metodu, L. Feyerbaxın antropoloji materializmi. Klassik alman fəlsəfəsinin dünya fəlsəfi fikrinə təsiri. XIX-XX | *2* | ***01.04.25*** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | əsrlərdə kapitalizm cəmiyyətinin maddi-iqtisadi, sosial-siyasi və mənəvi-mədəni həyatında əsaslı dəyişikliklərin baş verməsi, dünya sosializm sisteminin yaranması, dövrün sonlarında iflası. Elm sahəsində fundamental nailiyyətlər, qeyri-klassik fəlsəfənin formalaşması. postqeyri-klassik rasionallığın meydana gəlməsi, əsaslı ictimai-elmi dəyişikliklərin fərqli fəlsəfi dərki, müxtəlif fəlsəfi cərəyan və təlimlərin meydana gəlməsi. A.Şopenhauerin irrasionalizmi.<br>Marksizm təlimi,yaranmasının ictimai, iqtisadi və tarixi şəraiti, təbii-elmi və nəzəri mənbələri. Marksizmin tərkib hissələri: marksizm fəlsəfəsi, siyasi iqtisadı və elmi sosializm nəzəriyyəsi. Marksist fəlsəfənin dialektik materialist məzmunu, əvvəlki fəlsəfi sistemlərdən və Hegelin idealist dialektikasından fərqi. Marksizm təliminin təşəkkülü və inkişafında F. Engels və V.İ. Leninin rolu.Müasir dövrdə marksizmə münasibət.<br>XIX-XX əsrlərin qeyri-klassik və postqeyri-klassik fəlsəfi cərəyanları:pozitivizm neopozitivizm, post(neo)-pozitivizm.volyuntarizm, freydizm (psixoanaliz), neofreydizm, praqmatizm, ekzistensializm, ssientizm, texnisizm, antitexnisizm, neotomizm, hermenevtika, strukturalizm və s. çoxsaylı təlimlərin yaranması, rasionalizmin,insanidrakınapərəstişin yerini irrasiona-lizmin tutması.<br>**Ədəbiyyat siyahısı**<br>**Əsas:**<br>*1. Fəlsəfə: Red. prof. F.F. Ramazanov. Bakı, 1997, s. 112-131*<br>*2. Fərhadoğlu M. Fəlsəfənin əsasları, Bakı, 2006, s. 67-71, 88–96*<br>*3. Hacıyev Z.C. Fəlsəfə. Bakı, 2012, s.69–86*<br>*4. İmanov H. Fəlsəfənin əsasları. Bakı, 2007, s. 82–93*<br>*5. Mehdiyev R. Fəlsəfə. Bakı, 2010, s. 148–158*<br>*6. Şükürov A, Fəlsəfə. Bakı, 2008, s. . 2O5-218, 221–232*<br>**Əlavə:**<br>*1. Fəlsəfə ensiklopedik lüğəti. Bakı, 1997*<br>*2. Hegel. Hüquq fəlsəfəsi. Bakı, 20*07<br>*3. Hegel. Məntiq elmi.. Bakı, 2005* | | | | |

| | | | | |
|---|---|---|---|---|
| | *4. Hegel. Ruh fəlsəfəsi. Bakı, 2003*<br>*5.Lenin V.İ. Karl Marks // V.İ. Lenin. ƏTK,c.26, s.45–101*<br>*6. Lenin V.İ. Marksizmin üç mənbəyi və üç tərkib hissəsi // V.İ. Lenin. ƏTK,c.23, s.43–51*<br>*7. Rüstəmov Y., Həsənov H. K. Marks: inqilabi fikir dühası. Bakı, 1988*<br>*8. Yusifzadə Q., Quliyev Ş. Marksizməqədərki fəlsəfənin əsas inkişaf mərhələləri. Bakı, 1962*<br>*9.Zeynalov M.B. Fəlsəfə tarixi (Qərb fəlsəfəsi). Bakı, 2000.* | | | |
| ***5*** | **5-ci mövzu: Azərbaycan fəlsəfəsi.**<br>**Orta əsrlər** Azərbaycan fəlsəfəsinin ümumi səciyyəsi. Ərəb-müsəlman fəlsəfəsinin inkişafında azərbaycanlı filosofların rolu. Ə.Bəhmənyar: varlıq probleminin həlli və məntiq məsələləri. E.Miyanəçinin vəhdəti vücud və onun emanasiyalar nəzəriyyəsinin tənqidi. İşrakilik fəlsəfəsi: Ş.Sührəvərdi.<br>Nizami Gəncəvinin fəlsəfi və kosmoloji təlimi: dünya və insanın mənşəyi, kainatın quruluşu problemi, onun ideal cəmiyyət konsepsiyası. N.Tusinin varlıq, idrak, məntiq və əxlaqa dair görüşləri.<br>Azərbaycanda vəhdəti vücud, sufizm və hürufizm fəlsəfəsi.Ş.Sührəvərdininişraqilik təlimi əsas prinsipləri. Sufiliyin əsas ideyaları və həqiqətə çatmanın dörd mərhələsi. Hürufilik: Fəzlullah Nəimi, İmadəddin Nəsimi.<br>**Azərbaycan maarifçilik** hərəkatının yaranması və onun əsas prinsipləri. A.A. Bakıxanovun qrammatika, tarix, coğrafiya, məntiq və əxlaq haqqında fikirləri, onun sufi mövqeyi. Mirzə Kazımbəyin qrammatika, tarix, din, və miflərə dair baxışları.<br>M.F.Axundovun yaradıcılığı. Varlıq, məkan və zaman haqqında fikirləri. M.F.Axundovun "Aldanmış kəvakib" əsəri və onun ədalətli şah konsepsiyası.<br>H.B.Zərdabinin dünyagörüşünün təbii-elmi əsasları və onun tərəfindən darvinizimin təbliği. Cəmiyyətin inkişafına dair baxışlarında idealist mövqeyi. Azərbaycanda mətbuatın yaranması: | ***2*** | ***15.04.25*** | |

| | | | | |
|---|---|---|---|---|
| | "Əkinçi" qəzeti.<br>**XX əsrdə fəlsəfə və azərbaycançılıq ideologiyası**<br>Ə. Agaogli, Ə. Hüseynzadə, M.Ə.Rəsulzadə, H. Hüseyinov<br>**Heydər Əliyev və azərbaycançılıq ideologiyası.**<br>**Ədəbiyyat siyahısı**<br>**Əsas:**<br>1. *Fəlsəfə: Red. prof. F.F. Ramazanov. Bakı, 1997, s.112-144*<br>2. *Fərhadoğlu M. Fəlsəfənin əsasları, Bakı, 2006, s. 88-121, 376-382*<br>3. *Hacıyev Z.C. Fəlsəfə. Bakı, 2012, 88–96*<br>4. *H. Fəlsəfənin əsasları. Bakı, 2007, s. 96–102*<br>5. *Mehdiyev R. Fəlsəfə. Bakı, 2010, s. 197–200*<br>6. *Şükürov A, Fəlsəfə. Bakı, 2008, s. 241–251, 273–277*<br>**Əlavə:**<br>1. *Axundov M.F. Bədii və fəlsəfi əsərləri. Bakı, 1987*<br>2. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə. Bakı, 2004-2005*<br>3. *Bakıxanov A.A. Seçilmiş əsərləri. Bakı, 1984*<br>4. *Fəlsəfə ensiklopedik lüğəti. Bakı, 1997*<br>5. *Hüseynov H. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı, 2006* | | | |
| *6* | **6-cı mövzu:Fəlsəfədə varlıq, materiya və şüur problemi**.<br>**İcmal:** Varlıq probleminin fəlsəfi fikir tarixində yeri: varlığın dini, idealist vəmaterialist anlayışları. Ontologiya fəlsəfənin varlıq təlimi kimi, metafizika anlayışının onun sinonimi kimi işlədilməsi. Varlığın əsas formaları: maddi varlıq, mənəvi varlıq, sosial varlıq, insanın varlığı. Təbiət maddi varlığın əsası kimi. Dünyanın mövcudluğu və mahiyyəti haqqında müxtəlif təlimlər. Varlığın mənəvi, sosial, insan formalarının ümumi mahiyyəti, qarşılıqlı əlaqəsi. Varlıq probleminin məna aspektləri, reallıq, mövcudluq və gerçəklik anlayışları.<br>Materiya anlayışı, varlığın substansiyası kimi. Fəlsəfi fikir tarixində materiya probleminin yeri. Materiyanın fəlsəfi tərifi. Təbiətşünaslıq elmlərinin materiyanın növləri, struktur səviyyələri və | ***2*** | ***29.04.25*** | |

quruluşu haqqında yenilikləri.Materiyanın atributları və mövcudluq formaları.

Hərəkətmateriyanın əsas atributu kimi. Hərəkətin mənbəyi və formaları, F. Engelsin təsnifatı. Müasir təbiətşünaslıq hərəkətin formaları və onların qarşılıqlı əlaqəsi haqqında. Hərəkət kateqoriyasının inkişaf, tərəqqi və tənəzzül anlayışlarına münasibəti.

Məkan və zaman materiyanın mövcudluq formaları kimi. Onların səciyyəvi xüsusiyyətləri, məkan və zamanın sonluluğu və sonsuzluğu problemi. A.Eynşteynin nisbilik nəzəriyyəsində materiya, hərəkət, məkan və zamanın vəhdəti məsələsinin qeyri-klassik həlli.

Şüur anlayışı, fəlsəfə və təbiətşünaslıqda şüur problemi. Fəlsəfə tarixində şüur probleminə münasibət, qeyri-elmi konsepsiyalar: hilozoizm, vulqar (bayağı) materializm, simvolizm, freydizm və s. Şüurun formalaşmasında əmək, ünsiyyət və dilin rolu. Şüurun idraki və sosial-tənzimləyici funksiyası. Şüur və inikas, onun ali səviyyəsi olan şüurun yalnız insana məxsusluğu. Şüurun ictimai-tarixi mahiyyəti, yaradıcı xarakteri. Mənlik şüuru. Şüur və süni intellekt.

**Ədəbiyyat siyahısı**

**Əsas:**

1. *Fəlsəfə: Red. prof. F.F. Ramazanov. Bakı, 1997, s.152-197*
2. *Fərhadoğlu M. Fəlsəfənin əsasları, Bakı, 2006, s. 122–153*
3. *Hacıyev Z.C. Fəlsəfə. Bakı, 2012, s. 109–139; 170–192*
4. *İmanov H. Fəlsəfənin əsasları. Bakı, 2007, s. 260–301*
5. *Mehdiyev R. Fəlsəfə. Bakı, 2010, s.251–256; 289–300; 304–305*
6. *Şükürov A, Fəlsəfə. Bakı, 2008, s.397–415*

**Əlavə:**

1. *Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2017*
2. *Engels F. Meymunun insana çevrilməsi prosesində əməyin rolu// Marks K. və Engels F. Seçilmiş əsərləri: 3 clddə, c.3. Bakı, 1983, s. 70–83*
3. *Fəlsəfə ensiklopedik lüğəti. Bakı, 1997*

| | | | | |
|---|---|---|---|---|
| | *4. Tusi N. Əxlaqi-Nasiri. Bakı, 2005* | | | |
| *7* | **7-ci mövzu: Fəlsəfədə idrak problemi. Dialektikanın qanun və kateqoriyaları**<br>**İcmal:**Fəlsəfənin predmetində idrak probleminin yeri, fəlsəfi qnoseologiya, epistemologiya anlayışı ilə əlaqəsi. Fəlsəfi fikir tarixində dünyanın dərkinə optimist və pessimist-aqnostik münasibət. İdrakın pillələri:hissi və məntiqi-rasional idrak, onların formaları və qarşılıqlı münasibətləri.<br>Elmi idrak, səviyyələri: empirik elmi idrak və nəzəri elmi idrak. Empirik elmi idrakın bilavasitə canlı müşahidə və təcrübə ilə bağlılığı. Nəzəri elmi idrak, onun formaları. Elmi idrakın nəzəri və empirik səviyyələrinin əlaqəsi.<br>Elmi idrakın metodları,tətbiq sahəsinə (əhatə dairəsinə) görə təsnifatı: xüsusi elmi metodlar, ümumelmi metodlar və ən ümumi – universal fəlsəfi metodlar; elmi fəaliyyətin xarakterinə görə təsnifatı: ümumməntiqi, nəzəri,empirik vəən ümumi – universal metodlar. Qeyri-elmi (eklektika, sofistika), elmi əsası olan fəlsəfi metodlar (metafizika, dialektika, sistemli yanaşma və sinergetika), onların mahiyyəti və elmi idrak üçün metodoloji əhəmiyyəti.<br>Həqiqət problemi,elmi, dini və fəlsəfi aspektləri. Fəlsəfi verifikasiyahəqiqətin məntiqi-metodoloji təsdiqi üsulu,praktika idrakın əsası və həqiqətin meyarı kimi.<br>Dialektika inkişaf edən və getdikcə zənginləşən fəlsəfi biliklər sistemidir. Dialektikanın əsas prinsipləri və funksiyaları. Dialektikanın qanunları:əksliklərin vəhdəti və mübarizəsi qanunu, kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə və əksinə keçməsi qanunu, inkarı inkar qanunu. Dialektikanın kateqoriyaları.<br>**Ədəbiyyat siyahısı**<br>**Əsas:**<br>*1. Fəlsəfə: Red. prof. F.F. Ramazanov. Bakı, 1997, s. 301-314*<br>*2.Fərhadoğlu M. Fəlsəfənin əsasları, Bakı, 2006, s. 154–166; 282–294*<br>*3. Hacıyev Z.C. Fəlsəfə. Bakı, 2012, 192–220; 449–466* | *2* | ***13.05.25*** | |

| | | | | |
|---|---|---|---|---|
| | *4. İmanov H. Fəlsəfənin əsasları. Bakı, 2007, s. 260–301*<br>*5. Mehdiyev R. Fəlsəfə. Bakı, 2010, s.251–256; 289–300; 304–305*<br>*6. Şükürov A, Fəlsəfə. Bakı, 2008, s.397–415*<br>**Əlavə:**<br>*1.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2017*<br>*2.Engels F. Meymunun insana çevrilməsi prosesində əməyin rolu // Marks K. və Engels F. Seçilmiş əsərləri: 3 clddə, c. 3. Bakı, 1983, s. 70–83*<br>*3.Fəlsəfə ensiklopedik lüğəti. Bakı, 1997*<br>*4.Tusi N. Əxlaqi-Nasiri. Bakı, 2005* | | | |
| ***8*** | **8-ci mövzu: Fəlsəfədə insan, cəmiyyət və müasir dövrün qlobal problemləri.**<br>**İcmal:** Fəlsəfi antropologiya, fəlsəfədə insan probleminin spesifikliyi, insanın biopsixososial varlıq kimi öyrənilməsi, burada bioloji, psixi-mənəvi və sosial amillərin nisbəti və vəhdəti, antropososiogenez anlayışı.<br>İnsanın mənşəyi və mahiyyəti məsələsinə dini, idealist və materialist baxışlar, onun həllində təbii-elmi, psixoloji-mənəvi və humanitar-ictimai elmlərin nailiyyətlərindən istifadənin zəruriliyi. İnsanın sosial varlığa çevrilməsində əmək, nitq (dil) və ünsiyyətin, ailənin rolu.<br>İnsanın həyatının məqsədi və mənası: eqoizm, altruizm və humanizm anlayışları ilə ifadə olunan meyllər.Evtanaziya, ona dini və dünyəvi-hüquqi münasibət.<br>Şəxsiyyət anlayışı, şəxsiyyət haqqında fəlsəfi konsepsiyalar və onların mahiyyəti. İnsan, fərd, şəxsiyyət, fərdiyyət anlayışları. Şəxsiyyət və cəmiyyət, şəxsiyyətin azadlığı və məsuliyyəti, hüquq və vəzifələri. Şəxsiyyət azadlığının fəlsəfi-hüquqi dərki konsepsiyaları: fatalizm, anarxizm, dərk olunmuş zərurət. Tarixi prosesdə xalq kütlələri və görkəmli şəxsiyyətlərin rolu, bu problemə baxışların müxtəlifliyi. Demokratiya şəxsiyyət azadlığının mühüm şərti kimi. Azərbaycan Respublikasının Konstitusiyasında şəxsiyyətin əsas azadlıq və hüquqlarına verilən təminat. | ***1*** | ***27.05.25*** | |

| | | | | |
|---|---|---|---|---|
| | Müasir dövrdə elmi-texniki, sosial və mənəvi tərəqqinin xüsusiyyətləri, ziddiyyətli xarakteri.<br>Mədəniyyətin fəlsəfi anlayışı, tarixi tipləri və təsnifatı. Mədəniyyətin inkişaf dialektikası: ənənə və innovasiya, mədəni irsə münasibət, multikulturalizm, millilik və ümumbəşəriliyin qarşılıqlı nisbəti.<br>Sivilizasiya anlayışı, tarixi tipləri. Müasir dövrdə müxtəlif sivilizasiyaların dinc yanaşı yaşaması problemi. Mədəniyyət və sivilizasiya anlayışlarının əsasən sinonim kimi işlədilməsinə baxmayaraq, onların arasındakı mühüm fərqlər.<br>İctimai şüurun quruluşu: ictimai və fərdi şüur, adi və kütləvi şüur, ictimai rəy, elmi-nəzəri şüur, ictimai varlığın dərkində onların rolu. İctimai şüurun səviyyələri: ictimai psixologiya və ictimai ideologiya. İctimai psixologiyanın insanların gündəlik həyatı ilə bağlılığı,ictimai ideologiyanın nəzəriliyi, elmi və qeyri-elmi, mütərəqqi və mürtəce, inqilabi və mühafizəkar ideologiyalar. onların cəmiyyətin inkişafına təsiri. İctimai şüurun formaları:siyasi. hüquqi, əxlaqi,dini, estetik (incəsənət), habeləelmi, fəlsəfi və ekoloji  şüur, onların mahiyyəti, strukturu, spesifik xüsusiyyətləri, cəmiyyətin mənəvi həyatında yeri.<br>Müasir dövrün qlobal problemləri.lokal (milli və ya məhdud), regional (məhəlli) və qlobal (dünya miqyaslı) problemlər. Qlobal problemlərin təzahür sahələrinə görə təsnifatı: hərbi-siyasi, iqtisadi-enerji, demoqrafik, ekoloji, humanitar səciyyəli qlobal problemlər, onların həllinin ədalətli beynəlxalq münasibətlər və bəşəriyyətin fəaliyyət birliyi ilə bağlılığı.<br>**Ədəbiyyat siyahısı**<br>**Əsas:**<br>*1. Fəlsəfə:  Red. prof. F.F. Ramazanov. Bakı, s. 319-339*<br>*2. Fərhadoğlu M. Fəlsəfənin əsasları, Bakı, 2006, s. 295–313*<br>*3. Hacıyev Z.C. Fəlsəfə. Bakı, 2012, s. 353–400*<br>*4. İmanov H.  Fəlsəfənin əsasları. Bakı, 2007, s. 302–317; 386–399; 400-403*<br>*5. Mehdiyev R. Fəlsəfə. Bakı, 2010, s.213–216; 301-304* | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | *6. Şükürov A, Fəlsəfə. Bakı, 2008, s. 310–315; 433-443*<br>**Əlavə:**<br>*1. Balayev M. İslam və onun ictimai-siyasi həyatda rolu. Bakı, 1991*<br>*2. Əhmədov Ə. Estetiklik və etikliyin qarşılıqlı münasibəti. Bakı, 1997*<br>*3. Fəlsəfə ensiklopedik lüğəti. Bakı, 1997*<br>*4. Marks K. Engels F. Alman ideologiyası. I fəsil // Marks K. və Engels F. Seçilmiş əsərləri: 3 cilddə, c. 1. Bakı, 1978, s.13-16*<br>*5. Masse Anri. İslam. Bakı, 1992*<br>*6. Səttarov M. Adi şüur və onun inkişaf dialektikası. Bakı, 1978* | | | |
| | | ***15saat*** | ***15s.*** | ***15s.*** |

**Qeyd:** Hörmətli tələbə, deyilən mühazirə və sizə təqdim olunan uyğun mətnlər ancaq istiqamətverici xarakter daşıyır. Buna görə də siz göstərilən ədəbiyyatlarda müstəqil istifadə etməyi bacarmalısınız.

**VI. Tələbələrin müstəqil işi üçün tapşırıqlar:**

Semestr ərzində sərbəst iş tapşırığı verilir və yerinə yetirilməsi 10 balla qiymətləndirilir. Sərbəst işin mövzuları - qiymətləndirmə üsulu şifahi sorğu olduqda- **əlyazma(referat),** təqdimat olduqda isə **Power Point təqdimatı** formasında təhvil verilməlidir.

Sərbəst iş tələbənin fərdi fikirlərinin nəticəsi olduğundan **plagiat yolverilməzdir.**

Tələbənin sərbəst işinin növü və forması (fərdi, komanda, qrup tapşırığı və s.) fənni tədris edən müəllim tərəfindən müəyyən edilir.

| **№** | **Sərbəstişin Mövzusu** | **Saat** | **Sərbəst işin təhvil verilməsinin son tarixi** | **qiymətləndirmə üsulu** |
|---|---|---|---|---|
| **1** | Antik dövrdə klassik mərhələ (Platon Aristotel) | | **semestrin sonu** | **Referat, şifahi sorğu** |
| **2** | Antik fəlsəfənin xüsusiyyətləri və əsas tarixi inkişaf mərhələləri | | | |
| **3** | Sofistlər və Sokrat | | | |
| **4** | Azərbaycanda XII-XIII əsrlərdə fəlsəfə | | | |
| **5** | Fəlsəfədə insan problemi | | | |
| **6** | Fəlsəfədə şüur problemi | | | |
| **7** | Müasir dövrün qlobal problemləri | | | |
| **8** | Mədəniyyət və sivilizasiya | | | |
| **9** | XIX əsr Azərbaycan maarifçıləri(Bakıxanov, Axundov, Zərdabi) | | | |
| **10** | Cəmiyyətin mənəvi həyatı | | | |
| **11** | Sufilik fəlsəfəsiHürufilik fəlsəfəsi | | | |

| | | | | |
|---|---|---|---|---|
| **12** | Nizami Gəncəvi və N.Tusinin təlimləri | | | |
| **13** | Klassik Alman fəlsəfəsi | | | |
| **14.** | Praqmatizm (Ç.S.Pirs, U.Cems, J.Dyui) | | | |
| **15** | Pozitivist fəlsəfə. Psixoanalitik fəlsəfə. | | | |
| **16** | Fransa Maarifçilik fəlsəfəsi: Volter, Didro, Russo, Monteskyö. | | | |
| **17** | Heydər Əliyev və azərbaycançılıq ideologiyası | | | |
| **18** | Azərbaycanda milli-ideoloji fəlsəfə Ə. Agaogli, Ə. Hüseyinzadə, M.Ə.Rəsulzadə. | | | |
| **19** | Orta əsrlər Şərq-müsəlman fəlsəfəsi: kəlam. | | | |
| **20** | Sxolastik fəlsəfə (Foma Akvinalı) | | | |
| **21** | Patristika: Tertullian, Origen və Avqustin | | | |
| **22** | İntibah dövründə humanist fikir: F.Petrarka, L.Valla | | | |
| **23** | Şərq peripatetizmi (Farabi, İbn Sina, İbn Rüşd | | | |
| **24** | İdeal cəmiyyət konsepsiyaları: T.Mor, T. Kampanella | | | |
| **25** | Materiyanın mövcudluq formaları. | | | |
| **26** | Eksiztensializm fəlsəfi cərəyanı | | | |
| **27** | İrrasionalizm: A.Şopenhauer və F.Nitsşe | | | |
| **28** | Yeni dövr fəlsəfəsində rasionalizm: R.Dekartın və Q.Leybnis | | | |
| **29** | Yeni dövr fəlsəfəsində empirizm: F.Bekon və C.Lokk | | | |
| **30** | Zərdüştlük dini-fəlsəfi cərəyanı | | | |

**VII.İmtahanın keçirilməsi forması – yazılı**

**VIII.Semestr ərzində qiymətləndirmə və bal bölgüsü:**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmri ilə təsdiq edilmiş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə”sini tələbləri əsas götürülərək.

Balların maksimum miqdarı – 100 bal.

***A)Semestr ərzində toplanan maksimum bal* – 50 bal.**

| | |
|---|---|
| Dərsə davamiyyətə görə | 10 bal |
| | |
| Tələbələrin sərbəst işinə (referat, prezentasiya, tədqiqat işi və s.) görə<br>**Qeyd: Plagiat halları qəti qadağandır!** Sərbəst işlə əlaqədar bütün tapşırıqların adı, təqdim olunma şərtləri, vaxtı və qiymətləndirmə üsulu cədvəldə göstərilmişdir. | 10 bal |
| Seminar (məşğələ) nəticələrinə görə | 30 bal |

- ***10 bal*** - *tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;*
- ***9 bal*** - *tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu açа bilir;*

- **8 bal** - *tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*
- **7 bal** - *tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir ;*
- **6 bal** - *tələbənin cavabı əsasən düzgündür. ;*
- **5 bal** - *tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;*
- **4 bal** - *tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*
- **3 bal** - *tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandırmağı bacarmır;*
- **1-2 bal** - *tələbənin mövzudan qismən xəbəri var;*
- **0 bal** - *suala cavab yoxdur.*

***B)Semestr imtahanı nəticəsinə görə*** **- maksimum 50 bal**

Hər biletdə – **5 sual**, hər suala – **10 bal** verilir.

**Qeyd:** ***Tələbənin imtahandan topladığı balın miqdarı 17-dən az olmamalıdır.***

***C)Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana qədər toplanan ballar əsasında):***

| | | |
|---|---|---|
| **91 – 100 bal** | **əla** | **A** |
| **81 – 90 bal** | **çox yaxşı** | **B** |
| **71 – 80 bal** | **Yaxşı** | **C** |
| **61 – 70 bal** | **Kafi** | **D** |
| **51 – 60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

**IX. İmtahan sualları:**

1. Fəlsəfə və onun predmeti.
2. Dünyagörüşünün səviyyələri və növləri
3. Fəlsəfi biliyin strukturu
4. Fəlsəfənin əsas funksiyaları
5. Qədim hind fəlsəfəsinin əsas təlimləri
6. Qədim Çin fəlsəfəsinin əsas təlimləri
7. Qədim dövrdə Azərbaycan fəlsəfəsi: zərdüştlük, manilik, məzdəkilik
8. Antik dövrdə sokrataqədərki fəlsəfə: miletlilər və pifaqorçuluq
9. Eley məktəbi. Empordokl, Anaksaqor və Demokrit
10. Sofistlər və Sokrat
11. Antik dövrdə klassik mərhələ (Platon, Aristotel)
12. Patristika: Tertullian, Origen və Avqustin
13. Sxolastik fəlsəfə (Foma Akvinalı)
14. Orta əsrlər Şərq-müsəlman fəlsəfəsi: kəlam.
15. Şərq peripatetizmi (Farabi, İbn Sina, İbn Rüşd)
16. Orta əsrlər Azərbaycan fəlsəfəsi(Bəhmənyar, Miyanəçi, Sührəvərdi)
17. Nizami Gəncəvi və N.Tusinin təlimləri
18. İntibah dövründə humanist fikir: F.Petrarka, L.Valla
19. İdeal cəmiyyət konsepsiyaları: T.Mor, T. Kampanella
20. Yeni dövr fəlsəfəsində empirizm: F.Bekon və C.Lokk
21. Yeni dövr fəlsəfəsində rasionalizm: R.Dekartn və Q.Leybnis
22. Fransa Maarifçilik fəlsəfəsi: Volter, Monteskyö
23. Klassik alman fəlsəfəsi: İ.Kant və G.Hegel
24. XIX əsr Azərbaycan maarifçıləri(Bakıxanov, Axundov, Zərdabi)

25. Azərbaycanda milli-ideoloji fəlsəfə (Ə. Agaoglu, Ə. Hüseynzadə, M.Ə.Rəsulzadə.)
26. Heydər Əliyev və azərbaycançılıq ideologiyası
27. İrrasionalizm: A.Şopenhauer və F.Nitsşe
28. Marksist fəlsəfə.
29. Praqmatizm (Ç.S.Pirs, U.Cems, J.Dyui)
30. Pozitivist fəlsəfə. Psixoanalitik fəlsəfə.
31. Fəlsəfədə varlıq problemi
32. Materiya, onun səviyyələri
33. Materiyanın mövcudluq formaları.
34. İdrakın səviyyələri və formaları
35. Elmi idrakın forma və metodları.
36. Dialektika. Dialektikanın əsas qanunları və kateqoriyaları
37. Həqiqət haqqında təlim
38. Fəlsəfədə insan problemi
39. İnsanın mənşəyi haqqında nəzəriyyələr
40. Fərd, fərdiyyət və şəxsiyyət
41. İnsan həyatının mənası
42. Fəlsəfədə şüur problemi
43. İctimai şüur və onun formaları
44. Cəmiyyət. Cəmiyyətin əsas sferaları
45. Qlobal problemlərin təsnifatı

**Müəllim:** **Əhmədli Rafail Ayvaz oğlu**
**(soyadı, adı, atasının adı)**

**İmza:** ____________________________
**Tarix: Fevral 12- 2025-ci il**